

# "AY EVİ" – "AVEY" QORUĞU TƏBİƏTİN MÖCÜZƏSİDİR

Azərbaycanın hər qarışı təbiət abidələri ilə zəngindir. Bu abidələr qoruqlar, milli parklar formasında qorunur, onların tarixi diqqətlə araşdırılır. Təbiətin bizə bəxş etdiyi belə füsunkar abidələrdən biri də «Avey» Dövlət Tarix-Mədəniyyət Qoruğudur. Qoruq Qazax rayonu ərazisindəki hündürlüklər arasında Daş Salahlı kəndindən və Qazaxdan Yuxarı Salahlı kəndinə gedən yoldan görünən Avey massivində yerləşir. Avey dağının adı bu yerdə bir zamanlar mövcud olan atəşpərəstlərin ibadətgahı ilə əlaqədardır. "Avey" sözü qədim türk dilində Ay evi deməkdir. Dağın 992,5 metr hündürlüyündə qədim alban kilsəsi görünür. Qafqaz Albaniyasının əsas məbədi olan həmin Aveydağ məbədi IV-V əsrlərə aid edilir. Məbədə gedən yol dağ üzərindən keçir, lakin obyekt Ermənistan-Azərbaycan sərhədində yerləşir. Avey dağının şimal-qərb hissəsində Daş Salahlı kəndində yerləşən qədim mağara diqqəti çəkir. Əhəng qayaların altında mağaradan süzülən Damcılı bulağı axır. Buraya insanlar dincəlmək üçün gəlirlər. Mağaranın ərazisi 360 kv metr təşkil edir. Arxeoloji qazıntılar zamanı burada müxtəlif dövrlərə aid 8000-dən artıq əşya tapılıb. Bunlardan ən qədimi orta və üst paleolit dövrlərinə, ən yenisi isə tunc dövrünə və orta əsrlərə aid edilir. Avey massivi Avey Dövlət Qoruğu (ərazisi 3613 ha) çərçivəsində mühafizə olunur.

"Avey" Dövlət qoruğu 1989-cu ildə yaradılıb. Qoruqda 3 filial – "Əskipara", "Damcılı" və "Göyəzən" filialları fəaliyyət göstərir. Qoruğun əsas məqsədi rayonda olan dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidələrin elmi təhlilini vermək, mühafizə edilib qorunmasını və saxlanılmasını təmin etməkdir. Qoruğun ərazisində 57 ədəd abidə qeydiyyata götürülüb. Bu abidələrin biri – Damcılı mağarası dünya, 32-si ölkə, 24-ü yerli əhəmiyyətli abidələrdir. Sirli-soraqlı Əskipara qalası, od, yel, su dəyirmanları, qədim qoç fiqurları, məbədlər, türbələr, ehramlar, günbəzlər, Göyəzən dağı, Koroğlu qalası, qədim Avey məbədi, paleolit daş dövrünün ilk insanlarının məskunlaşdığı Damcılı mağarası və digər abidələr milli tarixi sərvətimizdir.



* * *

2015-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin (indiki Mədəniyyət Nazirliyi) təşəbbüsü ilə Yaponiyanın Tokio Universitetinin Daş dövrü mütəxəssisi professor Yoşihiro Nişiakinin rəhbərliyi altında böyük bir heyət Avey dağı ətəklərində kəşfiyyat xarakterli axtarışlar aparmaq üçün dəvət olunub.

Yaponiyalı mütəxəssislər tərəfindən əraziyə baxışdan və müvafiq axtarışlardan sonra Avey dağında, Damcılı mağara düşərgəsinin ətrafında, Damcılı mağarası da daxil olmaqla, dünya əhəmiyyətli arxeoloji irsi kompleks tədqiq etmək üçün üçtərəfli beynəlxalq memorandum imzalanıb. Memorandum Mədəniyyət Nazirliyi tərəfindən "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu, AMEA tərəfindən Arxeologiya və Etnoqrafiya İnstitutu, Yaponiya tərəfindən Tokio Universiteti Muzeyi arasında bağlanıb.

Beynəlxalq ekspedisiyanın məqsədi ərazinin qədim insan məskəni olmasını təsdiqləmək, bundan başqa, Neolitdən əvvəlki dövrlərə aid maddi sübutlar əldə etməkdir.

**2016-cı ilin avqustunda "Avey" qoruğu ərazisində yerləşən dünya əhəmiyyətli Damcılı mağara düşərgəsində arxeoloji qazıntılara başlanılıb. İyulun 19-da Qazağa səfər edən mədəniyyət naziri Əbülfəs Qarayev qoruğa baş çəkib və aparılan arxeoloji işlərlə maraqlanıb. Nazirə bildirilib ki, 10-a yaxın müxtəlif istiqamətdə kəşfiyyat xarakterli qazıntı işləri aparılıb.**

Yaponiyalı və yerli arxeoloqların birgə işlədiyi ərazinin 4 metr dərinliyində qazıntı aparılarkən Orta əsrlərə, Tunc dövrünün sonuna aid, daha dərində isə Neolit dövrü qalıqları, ocaq yerləri, fauna nümunələri (sümüklər), təxminən yarım metr dərində lal təbəqədən aşağıda isə Orta paleolit dövrünün son mərhələsini əks etdirən qəlpə, nüvə tullantıları və alət nümunələri əldə olunub. Damcılıda tapılan maddi mədəniyyət nümunələrinin dövrlərinin müəyyənləşdirilməsi üçün onlar üzərində Yaponiya laboratoriyalarında araşdırmalar aparılıb.

Qoruğun gələcək fəaliyyətinin daha da gücləndirilməsi, araşdırmaların davam etdirilməsi istiqamətində tapşırıq və tövsiyələr verilib.

Fəxriyyə Abdullayeva


"Damcılı"


"Damcılı" mağara


"Əskipara" məbədi